MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

QEYRİ-MADDİ MƏDƏNİ İRS

TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

QONAQPƏRVƏRLİKDƏ SOSİAL ÜNSİYYƏT MƏDƏNİYYƏTİ:
NƏZƏRİ ƏSASLAR, STRUKTUR KOMPONENTLƏRİ VƏ MÜASİR ÇAĞIRIŞLAR
Arzu Soltan (Həsənli) 96

RƏQS, OYUN VƏ ƏNƏNƏVİ İDMAN MƏDƏNİYYƏTİ ANLAYIŞI VƏ TARİXİ
Rauf Bəhmənli 110

MİLLİ ATÇILIQ MƏDƏNİYYƏTİ VƏ QARABAĞ ATÜSTÜ OYUNU – ÇÖVKƏN
Ramal Nadir 116

PƏHLƏVANLIQ – ƏNƏNƏVİ ZORXANA OYUNLARI VƏ İDMAN NÖVLƏRİ
Xəyyam Orucov 122

AZƏRBAYCANDA ARXEOLOJİ TƏDQİQATLARDA TEKSTİL NÜMUNƏLƏRİ
Fariz Xəlilli 125

XALÇAÇILIĞIN TARİXİ, REGİONLARA GÖRƏ XALÇA MƏKTƏBLƏRİ,
XALÇANIN MƏİŞƏTDƏ VƏ MƏRASİMLƏRDƏ ROLU, QORUNMA VƏ
YAŞADILMA PROBLEMLƏRİ
Kübra Əliyeva 129

AZƏRBAYCAN KƏLAĞAYISI – MİLLİ KİMLİYİMİZİN İPƏK SİMVOLU VƏ
MƏDƏNİ İRSİMİZİN ZƏNGİN XƏZİNƏSİ
Sulidə Rüstəmova 155

KƏLAĞAYI SƏNƏTİNİN MİLLİ-MƏDƏNİ İDENTİKLİK KONSTEKTİNDƏ SEMİOTİK VƏ
ESTETİK TƏHLİLİ
Röya Talıblı 157

LAHICDA MİSGƏRLİK SƏNƏTİ HAQQINDA
Nəzər Əliyev 161

TƏZHİB SƏNƏTİNİN TARİXİ VƏ MAHİYYƏTİ
Şəhla Xəlilli 165

ŞƏRQİN İNCİSİ OLAN AZƏRBAYCAN MİNİATÜR SƏNƏTİNİN İNKİŞAF YOLU
Nərmin İmanova 169

AZƏRBAYCAN MİLLİ MƏTBƏXİNİN TƏHRİFSİZ ŞƏRHİ
Ceyran Əsgərova 175

XALQIMIZIN SÜFRƏ VƏ MƏTBƏX MƏDƏNİYYƏTİ
Kübra Əliyeva 190

TƏNDİRİN TARİXİ VƏ MƏDƏNİ ƏHƏMİYYƏTİ
Aida İsmayılova 194

ARXEOLOJİ TƏDQİQATLARDA MƏTBƏX, ÇÖRƏK VƏ YEMƏK MƏDƏNİYYƏTİ
Fariz Xəlilli 198

ŞƏRQİN İNCİSİ OLAN AZƏRBAYCAN MİNİATÜR SƏNƏTİNİN İNKİŞAF YOLU

Nərmin İmanova
"Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi
https://doi.org/10.30546/19023.2026.1001.328

Giriş. Xalqımızın "tanınma nişanı" sayılan Azərbaycan miniatür sənəti 2020-ci ilin 16 dekabr tarixində YUNESKO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsi üzrə Reprezentativ siyahısına daxil edilmişdir. "Miniatür" termini fransız, italyan və latın dillərindən tərcümədə "kinovar", yəni "qırmızı rəng" mənasını verir. Orta əsrlərdə Qərbi Avropada hazırlanan bəzi əlyazma kitabların bölmə başlıqlarındakı mətnin ilk hərfini "minium" adlanan, narıncı çalarlı qırmızı maddə ilə bəzəyirdilər. "Miniatür" termini də buradan qaynaqlanmışdır. Orta əsr Şərq ölkələrində bədii mirasın əsas səhifələrini əl ilə yazılmış kitablar tuturdu. Əlyazma kitablarının mətnlərini açıqlamaq, süjetin məzmununu ifadə etmək məqsədilə çəkilmiş rəngli illüstrasiyalar miniatürlər adlanır. Şərqin incisi hesab edilən miniatür sənəti Azərbaycan təsviri sənətinə dünya şöhrəti qazandırmışdır.

Şərq xalqlarının miniatür sənəti klassik Şərq poeziyasından bəhrələnmişdir. "Mübaliğəsiz demək olar ki, antik mifologiya qədim yunan sənəti üçün tükənməz mənbə olduğu kimi, klassik Şərq poeziyası da müsəlman Şərqinin miniatür sənəti üçün tükənməz mənbə olmuşdur" [5]. Şərq poeziyasının ölməz sənətkarları olan Nizami Gəncəvi, Sədi Şirazi, Əbülqasim Firdovsi Tusi, Əbdürrəhman Cami, Əlişir Nəvai, Xosrov Dəhləvinin əsərləri miniatürçü rəssamlar üçün zəngin ilham mənbəyi olmuşdur. Bu cür samballı əsərlər vasitəsilə miniatürlər humanist ideyalarla, dünyaca məhşur əbədi obrazlarla zənginləşmişdir. Nizaminin məhəbbət lirikası, fəlsəfi-didaktik poemaları, Firdovsinin "Şahnamə" epopeyası dünyəvi hisslərin, ülvi məhəbbətin tərənnümü ilə rəssamların yaradıcılığına sirayət etmişdir. Beləliklə, klassik Şərq poeziyası Azərbaycan miniatür sənətinin ideya və məzmununu müəyyən etməklə bərabər, onun bədii ifadə vasitələrinin inkişafına da təsir göstərmişdir.

Miniatür sənəti təkcə kitab illüstrasiyası deyil, təsviri və tətbiqi sənətin əksər növ və janrlarında uğurla tətbiq olunan bir üslubdur. Şərqdə miniatür sənətinin yaranmasına iki əsas məktəb təsir göstərmişdir: Çin-Uyğur və Ərəb-Mesopotamiya məktəbləri. Çin-Uyğur monqollarla Təbrizə gəlmiş uyğur rəssamlarının gətirdiyi Şərqi Türküstan təsviri sənətinə məxsus ənənələr idi. Ərəb-Mesopotamiya məktəbi dedikdə isə Bağdad məktəbinin sayəsində gələn rəngkarlıq ənənələri nəzərdə tutulur. Ərəb-Mesopotamiya üslubunun sirayət etdiyi miniatürlərdə Bizans rəngkarlığına xas olan qızılı rəng tonları, drapirovkalar, müqəddəsliyin simvolu olan nimblər (halə) diqqəti cəlb edir. Digər üslubun əks olunduğu miniatürlərdəki dekorativlik, qıyıq gözlər, burulğan elementlərin verilməsi Çin-Uyğur rəngkarlıq məktəbinə aid olan xarakterik xüsusiyyətlərdir. "Mənafi əl-Heyvan" və "Cami ət-təvarix"in bir çox miniatürlərində hər iki üsul yanaşı və paralel davam edərək öz saflığını qoruyub saxlayır. Lakin həmin nüsxələrdə elə miniatürlər də vardır ki, bunlarda hər iki üsul qaynayıb qarışmış, üzvi surətdə birləşərək yeni bir keyfiyyət - dekorativ səpkili obrazlı ifadə vasitəsi əmələ gətirmişdir" [5]**.** İlk dəfə Təbriz sənətkarları bu ideyanı həyata keçirərək, həmin üslubları yerli ənənələrlə uyğunlaşdırıb inanılmaz nəticə əldə etmişlər.

Azərbaycan miniatür sənətinin tarixi və inkişaf mərhələləri. Azərbaycan miniatür sənətinin ilkin formalaşma mərhələsi XIII-XIV əsərləri əhatə edir. Elxanilərin hakimiyyəti dövründə (1256-1357) 3 əsas mədəniyyət mərkəzi aktual idi: Təbriz, Marağa və Soltaniyyə. Elxanilərin Xoy, Mağara, Təbrizdə xüsusi saray emalatxanaları yerləşirdi ki, burada xəttatlar, rəssamlar, dekorativ-tətbiqi sənət ustaları, nəqqaşlar fəaliyyət göstərirdilər. Azərbaycan miniatür sənətinin ən qədim nümunələri olan "Vərqa və Gülşa" (XIII əsrin əvvəli), "Mənafi əl-Heyvan (1297-1299), "Cami ət-Təvarix" (1307-

1318) əlyazmalarına çəkilmiş nəfis miniatürlər Şərqdə yeni bir məktəbin yarandığını təsdiq edir. Bu miniatürlərdə bədii forma birliyi və üslub eyniliyi yoxdur. Qazan xanın vəziri Fəzlullah Rəşidəddinin ən məşhur əsəri olan "Cami ət-Təvarix" (Ümumi tarix) - ümumdünya tarixini özündə birləşdirən əlyazmasını sənətkarlar gözoxşayan miniatürlərlə illüstrə edirdilər.

XIV əsrin əvvəllərində Təbrizin ətrafında iki şəhərcik salınmışdı: Rəşidiyyə və Qazaniyyə. Bu şəhərciklərdə böyük kitabxanalar, bədii emalatxana, elm və tədris müəssisələri fəaliyyət göstərirdi. Təbriz bütün incəsənət sahələrinin inkişaf etdiyi şəhər idi. Təbrizdə Rəbi-Rəşidi adlı böyük elmi şəhərcik də var idi ki, müxtəlif ölkələrdən gələn alim və sənətkarlar burada toplanırdı. 1318-ci ildə Rəşidəddin oğurluqla ittiham olunaraq edam edildi. Bir müddət sonra onun oğlu Qiyasəddin 1328-ci ildə vəzir təyin olundu. Qiyasəddinin 1336-cı ilədək vəzirlik etdiyi bu dövrdə Təbriz şəhərində hazırlanmış əlyazma kitablarından dünya ədəbiyyatında "Böyük Təbriz Şahnaməsi" adı ilə tanınan, 1330-1350-ci illərə aid edilən "Şahnamə" nüsxəsini xüsusi vurğulamaq lazımdır. Demott "Şahnaməsi" Şərq miniatür sənət tarixinin şah əsəri hesab olunur. Bu əlyazmaya çəkilmiş miniatürlərin sayı 180-dən çox olsa da, hazırda müxtəlif kitablarda nəşr olunmuş 58 nümunə bu günümüzə qədər gəlib çıxmışdır. Bu miniatürlər əlyazmanın məzmunu və üslub xüsusiyyətlərini öyrənməyə imkan verir. "Təbriz miniatür məktəbinin tədqiqatçıları üçün Jorj Demottdan daha mənfur insan yoxdur. Əntiq əşyaların ticarəti ilə uğurla məşğul olan bu şəxs XX əsrin əvvəllərində Nyu-York və Parisdə rəssamlıq salonlarının sahibi olmuşdur. 1910-cu ildə o Elxanilər dövrünə aid "Şahnamə" əlyazmasını əldə edir. Demott əlyazmanı Metropoliten-muzeyə təklif etsə də muzey rəhbəri qiymətin olduqca yüksək olduğunu bildirdi. Bu halda tacir bu qiymətli sənət əsərini faktiki olaraq məhv edəcəyini düşünmədən "Şahnamə"-nin bu əlyazmasını hissə-hissə satmaq qərarına gəlir. Eyni zamanda, əlyazmanın əksər səhifələri qarışıq salınmışdı, üstəlik bəzi hallarda surətçıxaranlara yeni mətn səhifələrini sifariş verən Demott onları orijinal illüstrasiyalarla birləşdirirdi. O, barbarcasına hərəkət edir, nadir sənət nümunəsinin qorunub saxlanılmasına əhəmiyyət vermirdi. Sonralar sənətşünaslar "Şahnamə"nin bu nadir nüsxəsindəki mətn və miniatürləri eyniləşdirmək üçün xeyli say göstərməli oldular. Təəssüf ki, həmin əlyazmanın bir çox səhifəsi indiyədək tapılmayıb" [5].

XIV əsrin ikinci yarısı üçün "Meracnamə" (1360-1370), "Kəlilə və Dimnə" (1360-1374) əlyazmaları xarakterikdir. "Mənafi əl-Heyvan" (Heyvanların faydaları) və Teymurilərin hakimiyyəti illərində (1370-1507) qələmə alınmış "Kəlilə və Dimnə" əlyazmalarına çəkilən miniatürlər ilk dəfə Azərbaycan təsviri sənətində animalistik janrın təməlini qoymuşlar.

XV-XVl əsrlər Azərbaycan təsviri sənətinin qızıl dövrü hesab olunur. XV əsrdə Azərbaycanda memarlıq təsviri-sənətə nisbətən daha çox inkişaf etdiyi üçün, bu dövr miniatürlərində memarlıq binalarının interyer həlli üzə çıxmışdır. Bu dövrdə Təbriz miniatür məktəbinin üslub xüsusiyyətlərini daha dolğun əks etdirən əsərlərə misal olaraq dahi şairimiz Nizami Gəncəvinin XV əsrin sonu, XVI əsrin əvvəllərinə aid olan "Xəmsə" (İstanbul, Topqapı muzeyi), Firdovsinin 1524-cü il tarixli "Şahnamə" (Sankt-Peterburq, Şərq Xalqları İnstitutu), 1524-1529-cu illərə aid "Cami ət-Təvarix" əlyazmalarına çəkilən illüstrasiyaları göstərmək olar. Şah İsmayıl Xətai (1501-1524) və oğlu I Təhmasibin (1524-1576) hakimiyyəti illərində saray emalatxanası diqqətəlayiq nüfuza malik olmuşdur.

Dünya incəsənətinin dəyərli xəzinəsi olan Təbriz miniatür məktəbinin son inkişaf dövrü XVI əsrin sonu XVII əsrin əvvəllərini təşkil edir. Səfəvilər dövlətinin süqutu, ölkədə baş verən ictimai-siyasi hadisələr yerli sənət məktəblərinin fəaliyyətində durğunluq yaratmışdı. XVIII əsrdə tamamilə tənəzzül edən Azərbaycan boyakarlıq sənəti XIX əsrin sonlarından etibarən yenidən dirçəlməyə başlayır.

Miniatürün təsviri dili və kompozisiya xüsusiyyətləri. Dünyanın ən möhtəşəm muzey və kitabxanalarında, o cümlədən şəxsi kolleksiyalarda saxlanılan Azərbaycan miniatür sənətində İntibah

dövrü Avropa rəssamlarının əsərlərində mövcud olan perspektiv qanunlar, işıq-kölgə oyunu tətbiq edilməmişdir. Miniatürlərdə məkan-fəza dərinliyi deyil, müstəvi görüntü əsas götürülmüşdür. Miniatür bir növ insanları düşünməyə vadar edən təsvir vasitəsidir. Orta əsr Şərq əlyazmalarında xəttatlar mətni yazarkən, rəssam üçün kiçik bir sahə, çərçivə saxlayırdılar. Rəssam da öz növbəsində mətnin süjet xəttinə uyğun olaraq, həmin çərçivəyə illüstrasiyanı yerləşdirməli və kənara çıxmamalı idi. Çox kiçik formatda olan bu rəsmlərdə fiqurların perspektiv qanunda verilməsi, təbii ki, mümkünsüz olardı. Ona görə də Şərq miniatür sənətində perspektivadan istifadə edilməyib. XV əsr, Azərbaycan miniatür sənətinin intibah dövründə rəssamlar artıq çərçivədən kənara çıxırdılar. XVI əsrdə isə artıq rollar dəyişmişdi: əvvəlcə rəssam miniatürü çəkib xəttat üçün müəyyən sahə ayırırdı, daha sonra xəttat illüstrasiyaya əsasən lazım olan mətni yazırdı. Miniatür sənəti üçün əsas xarakterik xüsusiyyət şərti təsvir metodu idi. Qərbi Avropa təsviri sənət əsərlərinin kompozisiya quruluşu soldan sağa doğru oxunurdu. Lakin Şərqdə belə deyildi: İslam dininin formalaşması ilə erkən orta əsrlərdə ən köklü dəyişiklik baş verdi: çoxallahlıqdan təkallahlığa keçid. İnsanların dünya modeli bir ox ətrafında fırlanmağa başladığı üçün kompozisiya mərkəzdən oxunurdu. Çünki əsas obraz məqsədyönlü olaraq tam mərkəzdə verilirdi. Şərti təsvir metodu da İslam dini ilə əlaqəli idi. Bəzi yanlış təfsir edilmiş və təhrif olunmuş hədislərə görə, canlıların təsvirinə qadağa qoyulmuşdu. Lakin sonrakı dövrlərdə İslam alimləri sübut edir ki, müsəlman cəmiyyətində canlıların təsvirinə qoyulmuş qadağanın tətbiqinə dair heç bir fakt yoxdur. Belə ki, İslam dini Allahın, müqəddəslərin, canlı varlıqların təsvirini yaradıb onlara büt kimi sitayiş edilməsini qadağa etmişdi. Bu məhdudiyyətlər İslamdan əvvəlki büdbərəstliyin qarşısını almaq məqsədilə qoyulmuşdur. Bu səbəbdən, şirkə (Allaha şərik qoşmağa) yol verməmək məqsədilə sənətkarlar antropomorfizmdən yayınmışlar. Lakin, feodal hakimiyyət gücləndikcə hökmdar portretləri sifariş olunmağa başlamış, dünyəvi hakimiyyət dini hakimiyyəti əvəz etmişdi. Orta əsr rəssamları da, məqsədyönlü şəkildə şərti təsvir metodundan istifadə edərək canlı təsvirləri yaratmağa başladılar. Buna görə də, dekorativlik və qeyri-cismani fiqurlar miniatür nümunələri üçün xarakterikdir. Perspektivadan imtina olunduğu üçün rəssamlar kompozisiyanı planlara bölürdülər. Bu yolla kiçik təsvirdə böyük məkan əks olunur, uzaqda verilmiş fiqurlar simadan bir-birinə bənzəyirdilər. Obrazlar tamaşaçıda sanki maskalanmış kimi təəssürat yaradırdı. Nümunə üçün dahi Nizaminin "Xəmsə" əlyazmasına (1539-1543) görkəmli rəssam Soltan Məhəmmədin çəkdiyi "Xosrovun çimən şirini görməsi" adlı miniatürü göstərmək olar. 3 planlı kompozisiyada Xosrov üçüncü, Şirin isə birinci planda verilmişdir. Soltan Məhəmmədin digər bir məşhur əsəri olan "Sam Mirzənin məclisi" miniatürü spiralvari və çoxfiqurlu kompozisiya quruluşu ilə seçilir. Elxanilərin hakimiyyəti dövrünə aid əlyazmalara çəkilmiş miniatürlər horizontal kompozisiyada verilirdi. Məsələn, "Cami ət-Təvarix" əlyazması kitab bloku şəklində deyil, svitık (rulo) şəklində yazıldığı üçün açılan zaman miniatür aydın görünməli idi. Buna görə də horizontal, frizvari ("Vərqa və Gülşa") kompozisiyadan daha geniş istifadə edilirdi. Lakin, XV əsrdən etibarən vertikal kompozisiya daha çox gözə çarpır.

Qərbdə incəsənətin əsas faktoru kimi təqlidin əsas götürüldüyü dövrdə Şərqdə miniatürçü rəssamlar həyatı olduğu kimi təqlid etmirdilər. Beləliklə, Azərbaycan miniatür sənətinin digər xarakterik xüsusiyyəti təqliddən imtina olmuşdur. Şərqin rəssamı mücərrəd düşünməyə doğru yönəlmiş, gözəlliyi sadəlikdə axtarmışdır.

Miniatür sənətində rəng, forma və simvolika anlayışı. Səfəvilərin hakimiyyəti dövründə özünün ən yüksək inkişaf mərhələsinə çatan Azərbaycan miniatürlərinin demək olar ki, 95%-i bahar fəslində təsvir edilmişdir. Bu sənət üçün xarakterik olan əlvan rəng koloriti, parlaqlıq və dolğunluq, rənglərin kontrastlığı (daha konkret, qarışıq olmayan rənglər) miniatür sənətinin dahi ustadı, Şah İsmayılın oğlu Şah I Təhmasibə müəllimlik etmiş Soltan Məhəmmədin, "Şərqin Rafaeli" hesab edilən Kəmaləddin Behzadın yaradıcılığında daha qabarıq şəkildə öz əksini tapmışdır. "XVI əsrdə Təbriz miniatür məktəbinin keçdiyi tədrici inkişaf, aparılan yaradıcılıq axtarışları, bədii üslubun formalaşması və

getdikcə təkmilləşməsi birinci növbədə bu dövrün ən görkəmli rəssamlarının, Soltan Məhəmmədin rəhbərliyi altında saray emalatxanasında çalışan Mir Müsəvvir, Mir Seyid Əli, Müzəffər Əli kimi ustad sənətkarların yaradıcılığı ilə bağlı olmuşdur" [1].

Erkən miniatür nümunələrinə nəzər yetirdikdə, sənətkarların fəzadan imtina etdiyi aydın-açıq görünür. Belə illüstrasiyalarda həm fiqurlar azdır, həm də məkan işlənməyib. Tədricən mühitin təsviri əmələ gəldi və bununla da mənzərə janrı yarandı. Miniatürçü rəssamlar fiqurları real verməmək üçün formanın həcmindən imtina edərək, üçölçülü formadan uzaqlaşdırdılar. Həmçinin, təsvirlərdə miqyas anlayışı olmadığı üçün, yaxında duran fiqurla, uzaqdakı fiqurun ölçüsü eyni olurdu. Miniatürlərdəki fiqurların statik və donmuş halda olmalarına baxmayaraq rəssamlar məharətlə hərəkətdən ifadə edə bilirdilər. Rəssam hərəkəti təsvir edərkən onu fazalara bölürdü və fazaların içində ən estetik, inandırıcı olanı seçirdi. Belə ki, hərəkətin başlanğıcını və sonunu çəkərək fiqurlara xüsusi canlılıq və harmoniya qata bilirdi. Miniatürün əsas ifadə vasitələrindən biri olan xətt, obrazın yaradılmasında, hərəkətin verilməsində, məkanın planlarının qurulmasında estetik bir məna kəsb edən element kimi çıxış etmişdir.

Miniatürlər həmçinin, öz dövrünün etnoqrafik xüsusiyyətlərini özündə büruzə verir. Məsələn, Atabəylər dövrünə aid olan miniatür nümunələrində oğuzlara xas üz cizgiləri, həmin dövrün döyüş libasları təsvir edilir. Bizans təsviri sənətində müqəddəsləri fərqləndirmək üçün nimbdən istifadə edilirdisə, Şərq miniatüründə bu simvolik element halə adlandırılaraq İslam incəsənətində də tətbiq edilmişdir. Müəyyən obrazların haləli təsviri onların mənəvi gücünü ifadə etmək məqsədi daşıyırdı. Əsərlərdə davamlı təkrarlanan həndəsi və nəbati (bitki formalı) naxışlar tamaşaçıya əbədilik və sonsuzluq hissini aşılayır. Simvolizmə əsaslanan miniatür sənətində islimi, spiralvari, sarmaşıq formalı naxışlara müraciət edilirdi. Rəssam üçün təbiət əsl ilham mənbəyi idi. Əsas qayə görünənin arxasındakı görünməzi dərk etmək olduğundan, miniatürçü rəssamlar ifadə etmək istədikləri həqiqətləri birbaşa deyil, dolayı yolla, simvollardan istifadə etməklə izləyiciyə çatdırırdılar.

Klassik miniatür nümunələrinin təhlili. Əsrlərin səlnaməsinə çevrilmiş Azərbaycan miniatür sənəti nümunələrini "oxuya bilmək", onları bir-birindən fərqləndirmək üçün bəzi klassik nümunələrin təhlilinə nəzər yetirək:

İlkin miniatür nümunələrindən 71 illüstrasiyadan ibarət olan, faciəli məhəbbət dastanı "Vərqa və Gülşa" əlyazmasına Xoylu rəssam Əbdül Mömin ibn Məhəmmədin çəkdiyi miniatürlərdə baş qəhrəmanların müxtəlif epizodları, iztirabları, cərəyan edən hadisələr təsvir edilib. Frizvari kompozisiyaya malik olan bu miniatürlərin əksəriyyəti qızılı fonda verilməsi, halədən istifadə edilməsi baxımından Ərəb-Mesopotamiya üslubuna daha yaxındır. İnsanların etnik xüsusiyyətlərində, burulğan elementlərin verilməsində, atların, çadırların təsvirində isə Şərqi Türküstandan gələn ənənələri görürük.

"Mənafe əl-Heyvan" əlyazmasına çəkilmiş 94 miniatürün bir qismi Ərəb-Mesopotamiya, bir qismi Çin-Uyğur üslubunda çəkilmişdir. Bəziləri isə hər iki üslubun qarışığından əmələ gəlmişdir ("Habil və Qabil", "Adəm və Həvva"). Qazan xan üçün üzü köçürülmüş əlyazmada Əbu Səid Übeydullah ibn Bəhtuşinin müəllifi olduğu bu miniatürlərdə iri planlı təbiət fonunda heyvan və quş təsvirləri əks olunmuşdur. "Mənafi əl-Heyvan" üçün əsas xarakterik xüsusiyyətlərə yığcam, lakonik və ifadəli rənglər, monumental kompozisiya, dekorativliyi aid etmək olar. Gümüşü və bozumtul rənglərin təsviri Ərəb-Mesopotamiya məktəbinin təsirindəndir. Bu miniatürlərin 83-ü animalistik janrdadır, digər kompozisiyalarda isə insan təsirlərinə yer verilmişdir.

"Kəlilə və Dimnə" əlyazması əxlaqi-didaktik hekayələrlə zəngindir. Bu əsər İstanbul universitetinin Kitabxanasında saxlanılır. Nizami Gəncəvi "Sirlər Xəzinəsi" əsərini yazarkən "Kəlilə və Dimnə"də olan rəvayətlərdən ilhamlanmışdır. Əlyazmanın səhifələri insanın səadət arzularını tərənnüm edən, humanist və azadpərvər fikirlərlə zəngindir. Buradakı baş qəhrəmanlar xarakterləri bir-birilə təzad

olan iki çaqqaldır. Əsərdə Kəlilə doğruluq və dürüstlüyü, Dimnə isə fitnə-fəsadı təmsil edir. Əlyazmadakı illüstrasiyalar özündə həm Ərəb-Mesopotamiya, həm də Çin-Uyğur məktəbinin xüsusiyyətlərini ehtiva edir. "Kəlilə və Dimnə"nin məşhur miniatürlərindən olan "Aldanmış oğru" əsərində Şərqi Türküstan ənənələri qabarıq şəkildə özünü göstərir. Burada memarlıq nümunələrindən də istifadə edilmişdir. Miniatürdə əks olunan qıyıq gözlər, burulğan elementlər Çin-Uyğur məktəbindən, geyim formaları isə Ərəb-Mesopotom ənənələrindən xəbər verir.

Fəzlullah Rəşidəddinin əlyazması olan "Cami ət-Təvarix" Qazan xanın sifarişi ilə yazılmışdır. Tarixi janrda olan bu əsəri Rəşidəddin Monqolustan, Çin, İran, Hindistan tarixçiləri ilə birgə ərsəyə gətirmişdir. Əlyazmaya çəkilmiş miniatürlərdə Çin-Uyğur məktəbinin təsiri daha çox gözə çarpır. Bu üçhissəli əlyazmanın miniatürlərində türk və monqol tayfalarının etnoqrafik xüsusiyyətləri özünü daha qabarıq şəkildə büruzə verir. Dini süjetlər, döyüş səhnələri, dövrün hökmdarlarının təsviri bu miniatürlərdə öz əksini tapır. "Cami ət-Təvarix" əlyazmasına misal olaraq "Məhəmməd Peyğəmbərin (s) anadan olması", "Buddanın qızıl camı", "Bədr döyüşü", "Nuhun gəmisi", "Qara daşın Kəbədə yerləşdirilməsi" miniatürlərini göstərmək olar. Döyüş səhnələrində dinamiklik, burulğan elementlər əks olunmuşdur.

"Böyük Təbriz "Şahnamə"sindən (Demott "Şahnamə"si) qalan 58 miniatür hal-hazırda ABŞ, Kanada, İngiltərə və Fransanın muzeylərində, şəxsi kolleksiyalarda saxlanılır. Monumentallıq, təravətli rənglər, ifadəli simalar, dekorativlik "Böyük Təbriz "Şahnamə"si üçün xarakterik xüsusiyyətlərdir. Digər miniatürlərdən fərqli olaraq bu əlyazmaya çəkilmiş nümunələr emosionallıq baxımdan dərin həyəcan doğuran səhnələrlə zəngindir. "İsgəndərin cənazəsi üzərində ağlaşma", "Rüstəmin cənazəsi", "Əsir düşmüş Ərdəvan Ərdəşirin önündə", "İsgəndərin danışan ağacla söhbəti" adlı miniatürlər bu əlyazmaya aiddir. Demott "Şahnamə"sində hadisələr 3 əsas obrazın üzərindən cərəyan edir: Rüstəm, Bəhram və İsgəndər. Bu əlyazma dramatik janrdadır.

Nizaminin 1539-1543-cü illərə aid olan "Xəmsə" əlyazması Londonun Britaniya muzeyində saxlanılır. Bu məşhur nüsxə incə nəstəliq xətti, səhifələrin zəngin tərtibatı, miniatürlərin misilsiz bədii keyfiyyətinə görə nəinki Azərbaycanda, bütün Yaxın və Orta Şərqdə kitab sənətinin ən zərif və qiymətli şah əsərlərindən hesab edilir. XVI əsrin məşhur xəttatı Şah Mahmud Nişapurinin yazdığı bu nəfis əlyazma Soltan Məhəmməd və onun tələbələri Müzəffər Əli, Mir Seyid Əli, Mirzə Əli, Ağa Mirək İsfahani, Mir Müsəvvir kimi dövrün ən mahir ustad sənətkarları tərəfindən illüstrə edilmişdir. Bu miniatürlərdən Müzəffər Əlinin müəllifi olduğu "Bəhram Gur və Fitnə ovda" adlı əsəri nəzərdən keçirək. Əsərin süjet xətti Nizaminin "Yeddi gözəl" poemasındakı sözügedən səhnəylə eynidir. Bu sevimli süjeti bir çox miniatürçü rəssamlar təsvir etmişlər. Lakin Müzəffər Əlinin çəkdiyi miniatür özünün emosional təsir dairəsinə görə daha qüvvətlidir. Müzəffər Əli Bəhram Gurun əfsanəvi qəhrəmanlığını - istəkli kənizi Fitnənin şıltaq tələbinə görə bir oxla ceyranın ayağını qulağına tikməsi epizodunu ifa edir. Əsas qəhrəmanlardan sürətlə at çapıb, ox atan Bəhram və at üstündə oturub arfa çalan Fitnədən başqa, burada 2 süvari ovçu, 2 nəfər dağ dalından baxan müşahidəçi və bir gənc qulam təsvir edilir. Kompozisiya mürəkkəb və çoxfiqurlu olmasa da, rəssam gül-çiçəkli aşırımda böyük palıd ağacını, dağlıq mənzərə fonunda fiqurları elə ustalıqla, harmonik tərzdə yerləşdirmişdir ki, miniatür izdihamlı görünür. Dinamikliyi və rənglərin uyğunluğu baxımdan bu əsər xüsusi diqqətə layiqdir. Miniatürün yuxarı hissəsində müəllifin imzası da yer alır. Müzəffər Əli Səfəvilər dövrünün məşhur miniatür rəssamı, xəttatı və sənət nəzəriyyəçisi Sadiq bəy Əfşarın müəllimi olmuşdur.

Nəticə. Qərb təsviri sənətindən fərqli olaraq dini görüşlər çərçivəsində sıxılıb qalmayan, klassik Şərq poeziyasından bəhrələnən Azərbaycan miniatür sənəti uzun və samballı tarixi inkişaf yolu keçmişdir. Məkan, işıq-kölgə təzadı, perspektiva, üçölçülü formadan, fəza dərinliyindən, yarımçalardan imtina edən bu miniatürlər humanist, ideal, ümumiləşmiş insani keyfiyyətləri, kamil xüsusiyyətləri özündə ehtiva edir.

Azərbaycanda müxtəlif dövrlərdə hökmranlıq edən Atabəylər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilərin hökmdarları dövrün sənətkarlarını öz himayəsi altına alaraq onlar üçün xüsusi şərait yaratmış, saray emalatxanalarına ən məşhur sənət ustadların toplamış, Buxara və Səmərqənddən sıx, parlaq, cilalı kağızlar gətizdirmişlər. Xüsusilə, şeirə, sənətə yüksək qiymət verən, özləri də şair, rəssam və xəttat olan Şah İsmayıl Xətai və oğlu Təhmasibin dövründə Azərbaycan miniatür sənəti özünün qızıl dövrünü yaşamışdır.

Bu sənətdə rəng, forma və simvolika da mühüm əhəmiyyət daşıyır. Parlaq və dolğun rənglər miniatürlərin bədii təsir gücünü artırır, müxtəlif formalar və dekorativ elementlər isə əsərlərin kompozisiya bütövlüyünü təmin edir. Eyni zamanda, istifadə olunan simvollar və obrazlar Şərq mədəniyyətinin dünyagörüşünü, dini və fəlsəfi düşüncələrini əks etdirir.

Klassik miniatür nümunələrinin təhlili göstərir ki, bu əsərlər yalnız estetik baxımdan deyil, həm də tarixi və mədəni baxımdan böyük əhəmiyyətə malikdir. Onlar dövrün həyat tərzini, ədəbiyyatını, adət-ənənələrini və insanların dünyagörüşünü əks etdirən qiymətli sənət nümunələridir.

Şərqin incisi sayılan Azərbaycan miniatürü XX əsrin əvvəllərində Fransada yaranmış fovizm cərəyanı üçün xüsusi ilham mənbəyi olmuşdur. Miniatür sənəti təsviri sənətin bütün sahələrinə sirayət edərək, hal-hazırki dövrdə də öz aktuallığını qoruyur. Hazırki günümüzdə Azərbaycanda bu sənəti yaşadan, öz yaradıcılığında hər an Kəmaləddin Behzad, Soltan Məhəmmədin yaradıcılığından ilhamlanan sənətkar Pərinisə Əsgərovadır. Təbriz miniatür məktəbinin layiqli davamçısı olan rəssamın nəinki Azərbaycanda, bir çox ölkələrdə də beynəlxalq sərgiləri təşkil edilmişdir. İncəsənət dünyasında "Pəri miniatür" adı ilə tanınan rəssam, miniatürü təkcə kətan üzərində deyil, kəlağayı, keramika, şüşə üzərində də təsvir edərək Azərbaycan miniatürünün təsviri və tətbiqi sənətin bütün sahələrinə yayılmasında fəal iştirak edir.

Miniatür sənəti hələ də Azərbaycan incəsənətinin gizli dəfinəsi olaraq qalır. Bu yaradıcılıq sahəsində hələ açılmamış məqamlar vardır ki, onlar zamanla tədqiq edilməli və aşkara çıxarılmalıdır.

Ədəbiyyat:

1. Əfəndi R. Azərbaycan incəsənəti. – Bakı: Çaşıoğlu, 2001. – 312 s.
2. Fərzəliyev Ç. Vərqa və Gülşa: rəssam Əbdülmömin Məhəmməd əl-Xoyinin miniatürləri əsasında. – Bakı, 2021. – 333 s.
3. Həsənzadə C. Təbrizin sehrli nağılları. – Dubay: İRS, 2014. – 175 s.
4. Həsənzadə C. Təbrizin solmaz boyaları: XIV–XVI əsr Azərbaycan miniatür boyakarlığı. – Bakı: Nafta-Press, 2001. – 195 s.
5. Kərimov K. Azərbaycan miniatürləri. – Bakı: Şərq-Qərb, 2013. – 243 s.

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

Kitab ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2026
Çapa imzalanmışdır: 27.04.2026
Qarnitura: Alice, Times New Roman
Şərti çap vərəqi: 37,5
Formatı: 64x90 1/8
Tiraj: 300